# DAŞKƏSƏN –95



**RASİM SÜLEYMANLI**
*"Daşkəsən Dəmir Filiz" MMC-nin Baş mədən geoloqu*




## ÖN SÖZ ƏVƏZİ

Daşkəsən filiz rayonu, tarixlə təbiətin "əl-ələ" verdiyi nadir ərazilərdəndir.

Belə ki, Daşkəsənin tarixi, ölkəmizin sərvətlərindən biri olan dəmir filizin istismarı ilə bağlıdır və birini digərindən ayrı təsəvvür etmək olmaz. Dəmir filiz yataqlarının öyrənilməsi, istismarı tarixi və Daşkəsən rayonunun tarixi - biri digərini tamamlayır.

Daşkəsənin hər qayasında bir əsrin nəfəsi, hər yamacında xalqın izi var, desək yanılmarıq. Qoşqar dağının zirvəsində dayanaraq ətrafa nəzər yetirsək, ətrafdakı dağlar sanki əbədiyyətin özü qədər qürurludur – nə tərpənir, nə əyilir, sadəcə baxır: zamanın gözlərinə. Bu yurdun torpağı yalnız üzərində gəzdiyin səth deyil, alt qatlarında da tarix daşıyır.

Daşkəsən – bu adın içində həm daş var, həm də kəsən. Yəni bəzən sərt, bəzən zəhmətkeş, amma hər zaman dərin mənalı. Bura Azərbaycan torpağının təbii kitabıdır – oxumağı bacaran üçün hər səhifəsində bir tarix, bir sərvət, bir nəfəs var.

Daşkəsən dəmir filizi yatağı qədim dövrlərdən Azərbaycan xalqına məlum idi. Artıq Azərbaycanda Dəmir Dövründə neft, mis və digər faydalı qazıntılarla birlikdə dəmir də istifadə edilmişdir ki, bunu aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif silah və məişət əşyaları təsdiq edir.

XX əsrin 20-ci illərinin sonunda Azərbaycanda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. 1928-ci ilin oktyabrında Azərbaycan SSR Xalq Komissarları Soveti bu məsələni müzakirə edərək ona tərəfdar çıxdı. Həmin layihəyə əsasən qəzaların ləğv edilməsi lazım bilindi və rayonlaşdırmanın əsasında üçdərəçilik bölgü - dairə, rayon, kənd soveti — qoyuldu. VI Ümumazərbaycan Sovetlər Qurultayında (1-9.04.1929) qəbul olunmuş müvafiq bölgüyə əsasən yeni inzibati sistem tətbiq olundu.

Daşkəsən rayonu Azərbaycan SSR ərazisində, 95 il əvvəl, 30.08.1930-cu ildə inzibati ərazi kimi yaradıldı. Daşkəsən şəhərinin əsası II Dünya müharibəsindən sonra, 1948-ci il mart ayının 16-da qoyuldu. Rayon əsasən dəmir filizi yataqlarının istifadəyə verilməsi ilə əlaqədar salındı.

Daşkəsən rayonu respublikanın mühüm dağ- mədən sənayesi rayonlarından biridir. Ərazisində dəmir filizi, kobalt, alunit, qızıl kimi filizlər, mərmər, əhəng daşı, qranodiorit və s. tikinti materialları, odadavamlı, çətinəriyən müxtəlif növlü gillər və s. faydalı qazıntıları vardır.

## İLKİN QISA TARİXİ MƏLUMAT

Daşkəsən rayonunun ərazisi, qədim tarixi məlumatla görə, Azərbaycan atabəylərindən olan Qara Sunqurun adını daşıyan, Qarabağ bəylərbəyliyinin və Gəncə-Qarabağ əyaləti bölgələrindən biri - mərkəzi "Sunqurabad" kəndi olan – keçmiş Sunqurabad nahiyyəsinin çox hissəsini əhatə edir.

Zəngin təbii sərvəti ilə həmişə diqqət çəkən Azərbaycanın bu bölgəsi qədim dövrlərdən maraq dairəsində olmuşdur. Daşkəsən dəmir filizi haqda ilk yazılı məlumat orta əsr tarixçisi Həmdulla Müstəvfi Qəzvini (XIII əsr) tərəfindən yazılmışdır. O, " Nüzhat -al- Qulub" əsərinin Coğrafi hissəsində dəmir haqda yazdığı bölmədə qeyd etmişdir ki, ... Ərran bölgəsində Gəncə yaxınlığında bir mədən vardır. Nəhayət, Azərbaycan sərhədlərində yerləşən Kalantar (Kalanbar) yaxınlığında da bir mədən yerləşir...". Bu məlumatın təbii ki, Daşkəsən dəmir filizi yataqlarına aid olduğuna şübhə yaratmır.

Daşkəsən filiz rayonu haqqında ilk yazılı (elmi) məlumat 1826-cı ildə "Qornıy Jurnal"da ("Dağ-Mədən Jurnalı"nda, Sankt-Peterburqda) alunitlərdən zəy alınması məsələsi ilə əlaqədar olmuşdur. 19-cu əsrdə Zəylik yatağından alunitlər haqqında bir sıra məqalələr bu məsələyə həsr edilmişdir.

Dəmir filizi yatağı kimi ilk rəsmi yazılı məlumatları XIX əsrin ikinci yarısında (1865,1878) müəllifləri olan, Almaniya Coğrafiya Cəmiyyətinin üzvləri Q.V. Abix və Q.Roze vermişlər. 1860-cı illərdən "SİEMENS" şirkəti Şimal-Şərq yatağında kəşfiyyat işləri aparmış, kobalt və mis filizləri istismar etmişdir. Artıq 1869-cu ildə Daşkəsən yatağından 187,5 pud (3 ton) kobalt çıxarılmış, mavi rəng almaq üçün Almaniyaya göndərilmişdir.

1887-ci ilin məlumatına görə (A.Varentsov) Şimal -Şərq sahəsindən 1878 -1884-cü illərdə 4204 pud (67,3 ton) kobalt parıltısı və 5848 pud (93,6 ton) mis kolçedanı çıxarılmışdır.

1900-cü ildən Şimal yatağında şaxtalar və kiçikölçülü qalereyalardan istifadə edilərək istismar- filizçıxarma işləri aparılmışdır. 1900-1904-cü illərdə Şimal Kobalt yatağından 72 ton kobalt filiz çıxarılmışdır (Co =11,98%).

XIX əsrdə, 1867 -1915 –ci illər ərzində "Siemens" tərəfindən kobaltın yüksək tərkibli (10–18 %) yataqlarını aşkarlamış və 700 tona qədər kobalt, 1300 pud dəmir istehsal edilmiş və Almaniyaya aparılmışdır.

1914-cü ildə kolonist Rezendorf, yerli sahibkardan Şimal –Şərq yatağı ərazisini kirayə etmiş və geoloji – kəşfiyyat işlərinin aparılması üçün "Postuxov və K-o" şirkətinə sifariş etmişdir. Həmin firma yatağın, maqnetitli skarınlarının yer səthinə çıxışlarında xəndəklər və şurflar qazmaqla kəşfiyyat işlərini aparmış, paralel olaraq yatağın geologiyası da öyrənilmişdir. Kəşfiyyat işlərinin nəticəsinə əsasən istismarçı Rezendorf , yerli sahibkarla 30 illik müqavilə bağlamışdı. I Dünya müharibəsi bu müqavilənin başa çatmasına mane olmuşdur.

**Şəkil 1. Daşkəsən: dağ kəndi və kəndlilər (1940-cı illər)**







**Şəkil 2. Qoşqar dağı (1953-cü il)**

## Sovetlər dönəmində

I Dünya müharibəsindən sonra, artıq Sovetlər dönəmində, Daşkəsən filiz yataqlarının öyrənilməsi daha ciddi şəkil almışdır. Ərazidə geoloji kəşfiyyat işləri davam etdirilmişdir.

1923–1924-cü illərdə Daşkəsən ərazisində geoloji axtarış işləri aparılaraq ilk dəfə Daşkəsən ərazisinin geoloji xəritəsi tərtib edilmişdir (K.N. Paffenholts). 1926–1928-ci illərdə Geoloji Komitə daha da təkmilləşdirilmiş cihazlarla 4,5 $m^2$ ərazidə yenidən maqnitometrik ölçü işləri aparmışdır. Bu məlumatlara əsasən 1928-ci ildə Daşkəsən dəmir filizi ehtiyatı hesablanmış və 36 mln. ton olduğu göstərilmişdir.

Həmçinin, həmin illərdə geoloji axtarış işləri, əsasən, xəndəklər və yer səthinə çıxmış filiz qatlarından götürülmüş nümunələr əsasında ərazinin ətraflı geoloji təsviri verilmişdir.

Artıq Daşkəsəndə faydalı qazıntıların, xüsusən də dəmir, kobalt və alunit yataqlarının olduğu və ölkə üçün böyük əhəmiyyət kəsb etdiyi təsdiqləndikdən sonra, öncə dəmir filizinin çıxarılaraq daşınması üçün Gəncə -Daşkəsən Asma Hava Kanat Yolu çəkilməsini və Gəncədə metallurgiya zavodunun tikilməsi qərara alınır və Daşkəsən dəmir filizi yataqlarının istismarı üçün layihə tutularaq 1928-ci ildə bu işləri yerinə yetirmək üçün layihə tərtib olunur.

1929 -1932-ci illərdə, dəmir filizi üzrə geoloji kəşfiyyat işləri davam etdirilir və Daşkəsən ərazisində ilk dəfə olaraq (eləcə də Zaqafqaziyada) Şimal-Şərq və Şimal-Qərb sahələrində, daha dərin qatlardan süxur nümunəsi götürmək üçün mexaniki qazma kəşfiyyat işləri aparılır. Ümumiyyətlə, ümumi həcmi 4811 m olan 42 quyu qazılır.

Sonra layihədə dəyişiklik edilərək, həmin ərazidə rayon yaradılması, avtomobil yolu salınması və digər tikinti-quraşdırma işləri aparmaq üçün qərar qəbul edilmiş və 1930-cu ildə inzibati rayon kimi, həmin ildə yeni yaradılmış Nərimanov rayonu (1938-ci ildən Xanlar, indi isə Göygöl rayonu) ərazisindən torpaq sahəsi ayrılaraq, “Dəstəfur rayonu“ adı ilə yeni rayon təşkil olunmuşdur.

**Şəkil 3. İlk inzibati rayon məkəzi - Dəstəfur kəndi**



Rayon mərkəzi kimi, həmin dövrdə Gəncə şəhəri ilə təmasda olan, Daşkəsən-Xoşbulaq yaylağına aparan torpaq yolunun üstündə olan Dəstəfur kəndi seçilmişdi.

İlkin olaraq, geoloji-kəşfiyyat işlərinin aparılması üçün indiki "Mədənçilər" qəsəbəsi ərazisində, Qoşqar çayının sağ və sol sahillərində, geoloqlar üçün yaşayış məntəqəsi - qəsəbə salınmışdır.

Geoloji -kəşfiyyat və tikinti -quraşdırma işləri davam etdirilmişdir.

**Şəkil 4. “Geoloqlar üçün salınmış qəsəbə”**



1930-cu ildə Zaqafqaziya Metallurgiya Komitəsi yaradılmışdı. Sovet hakimiyyətinin ilk illərində maşınqayırma və metal emalı sənaye müəssisələrinin əsas

hissəsini metal məmulatı ilə təmin etmək üçün, ölkənin digər bölgələrində oldugu kimi Zaqafqaziya respublikalarında da ağır sənayenin yaradılmasına ehtiyac vardı. Bu məqsədlə Daşkəsən dəmir filizi, kobalt və alunit yataqlarının kəşfiyyatının aparılması, ehtiyatlarının hesablanması və dağ-mədən kombinatının tikilməsi, qapalı metallurgiya sisteminin qurulması üçün görkəmli elm adamları, mühəndis-geoloqlar, dağ-mədən mütəxəssisləri səfərbər edilmişdi.

Daşkəsən dəmir filizi yataqlarının istismarı barədə, həmin dövrdə nəşr edilən, "Ekonomiçeskiy Vestnik Azerbaycana" jurnalı yazırdı: "Metallurgiya sənayesinin gələcək inkişafının tam kəskinliyi ilə irəli sürülməsi Daşkəsən dəmir filizi mədənləri məsələsinin təcili həll edilməsini qarşıya qoyur".

1931-ci ilin oktyabrın 30-da SSRİ Xalq Təsərrüfat Şurası tərəfindən Daşkəsəndə metallurgiya kombinatının tikilməsi üçün qərar qəbul edilir və 1932-ci ildə bu məsələnin həllinə və mədənlərin inkişafına balanması üçün tədbirlər planı hazırlanır.

SSRİ Metallurgiya Zavodları Layihələndirilmə İnstitutu tərəfindən Gəncə yaxınlığında 3 sobalı domna sexindən,13 sobalı marten sexindən və 6 plikor dəzgahlı boru-prokat sexindən, habelə bir sıra köməkçi müəssisələrdən ibarət (ildə 600 min ton çuqun və 480 min ton boru istehsalı edən) nəhəng metallurgiya zavodunun, Daşkəsənin özündə isə zavodu dəmir filizi ilə təmin edə biləcək güclü dağ-mədən kombinatının layihələri hazırlandı.

Zaqafqaziya Xalq Komissarları Sovetinin (XKS)14 iyun 1934-cü il tarixli qərarı ilə Daşkəsən Tikinti İdarəsinin Gəncə şəhərinə köçürülməsi lazım bilinir.

1927-ci ildən 1931-ci ilədək dəmir filizi yataqları ilə yanaşı kobalt təzahürləri ərazisində geoloji -kəşfiyyat işləri aparılmışdır. 1930 -1937-ci illərdə Şimal kobalt yatağında 1000 metr dağ-mədən kəşfiyyat işləri aparılmışdır. Paralel olaraq tərkibi 2,5-3,5% olan 15 ton kobalt filizi çıxarılmışdır.

Həmin illərdə geoloji -kəşfiyyat və sənaye istismarında çalışan işçilər üçün kiçik bir qəsəbə salınmışdır. Sonrlar qəsəbə yaşayış məntəqəsinə çevrilmişdir.

1937-ci ilin fevral ayında, "SSRİ Ağır Sənaye üzrə Xalq Komissarlığı"nın əmri ilə "Daşkəsənkobalt" kəşfiyyat -sənaye Ofisi yaradılmış, müvafiq təşkilat və qurumları ("Azgeologiyaidarəsi", "Azəlvanmetkəşfiyyat", "Başnikelkobalt" və s.) cəlb edilməklə bütün işlər yenidən bərpa olunmuşdur. Görülən işlərin nəticəsində 01.01 1938-ci ilə MEK tərəfindən, filizdə orta keyfiyyəti 0,20% olan 150 ton (o cümlədən A2+B =20 ton) metal ehtiyatı təsdiqlənmişdir.

1937 -ci ildə sınaq zənginləşdirmə fabriki tikilmişdir (məhsudarlığı -sutkada 25 ton filiz). Həmin ildən dağ-mədən hazırlıq və istismar işlərinə başlanmışdır.

1938-ci ildən sınaq Saflaşdırma Fabrikində kobalt istehsalına başlanmışdır.

**Şəkil 5. "Kobalt" qəsəbəsi: Dünən və bu gün**





*SSRİ XKS -nin 1940-cı il oktyabrın 12-də, Daşkəsən dəmir filizi mədənlərinin əsasında Zaqafqaziya metallurgiya zavodunun tikilməsi haqqında qərar qəbul edilir. Bu qərarda zavodun Daşkəsəndə yox, 1940-cı ilin payızında Tbilisinin 9 kilometrliyində, Rustavi şəhərində metallurgiya zavodunun tikintisinə başlandı.*

II Dünya müharibəsinin başlanması bu çox mühüm dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsinə mane oldu.

II Dünya müharibəsi tikinti - quraşdırma işlərinə mane olsa da, kəşfiyyat işləri az həcmdə olsa da davam etdirilir.

1943-cü il 30 iyunda əksər inzibati idarələr Dəstəfur kəndindən Yuxarı Daşkəsən kəndinə köçürüldü və

Yuxarı Daşkəsən kəndinə qəsəbə statusu verildi.

Müharibədən sonra, bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da nəhəng tikinti işləri aparılmışdır. Daşkəsən dəmir filizi yataqlarının istismarı məqsədi ilə: Mingəçevir SES (1945-ci ildə), Sumqayıt BPZ (1945-ci ildə) və Daşkəsən Mİ (1945-ci ildə), həmçinin, Gürcüstanda Rustavi MZ (1944-cü ildə) paralel olaraq tikintisinə başlanılmış, artıq keçən əsrin 1950-ci illərinin əvvəllərində tikintisi başa çatmışdır.

Azərbaycan SSR-nin MK və Xalq Komissarları Sovetinin 11 may 1944-cü il tarixli 898 saylı qərarı ilə dağ-mədən işlərinin aparılması üçün Dəstəfur rayonu (indi Daşkəsən rayonu) ərazisində 1090,0 hektar torpaq sahəsi ayrılır və noyabr ayında torpaq sahəsinin sərhədləri dəqiqləşdirilir. SSRI Xalq Komissarlar Şurasının 14 yanvar 1945-ci il tarixli 701-p saylı sərəncamı və Qara Metallurgiya Xalq Komissarlığının 20 yanvar 1945-ci il tarixli 22 saylı əmri ilə "Daşkəsən Mədən İdarəsi" yaradılır. Daşkəsənə dəmir yolu ilə paralel olaraq avtomobil yolu çəkilməyə davam etdirilir.

Daşkəsən Mədən İdarəsinin baş ofisi ilkin dövrlərdə Gəncədə yerləşirdi. Hazırlıq işlərinin aparılması üçün işçi qüvvəsi mühəndislər, mütəxəssislər cəlb olunur, fəhlələr işə qəbul edilir, müvafiq peşələr üzrə hazırlıq kursları təşkil olunur, münasib işçiləri mədən, avtoyol, dəmir yolu, yaşayış binaları tikintisinə göndərilir.

Daşkəsən filiz rayonunun, eləcə də Daşkəsən şəhərinin tikintisində vacib rol oynamış, "Daşkəsənin qurucuları" adını almış "27-lər" haqda xüsusi qeyd edilməlidir.

1945-ci ilin yaz çağırışı 1927-ci ildə anadan olmuş, 18 yaşı tamam olmuş gənclər səfərbər olunub cəbhəyə göndərilir. Lakin, gənc əsgərlərin cəbhəyə çatdığı vaxt müharibənin qurtardığı elan olunur. Həmin il dağılmış ölkənin bərpasına, yeni tikinti sahələrinə, eləcə də yeni yaradılmış "Daşkəsən Mədən İdarəsi"nin tikintisinə 1000 nəfər ibarət gənc əsgər göndərilir. Bu gənclər, "27-lər", - "Daşkəsənin qurucuları" kimi Daşkəsən tarixinə düşmüşlər. Onların bəziləri, öncə kurslara cəlb edilir,ölkənin xüsusi məktəblərinə göndərilir. Onu da qeyd edək ki, 1950-ci ilədək "27-lər" hərbi vəziyyətə uyğun işləmişlər. Belə ki, işdən qaçan, gecikən, bir sözlə, qaydanı pozanlar, prokurorluğa, milisə (indi polis) göndərilir, cəza verilirdi.

Müharibədə əsir alınmış alman əsirlərin də bu tikintidə az rolu olmamışdır. Həm dəmir yolu və avtomobil yolu çəkilişində, həm də bina, körpülər (əsasən dəmir yolu körpüləri) və qurğuların tikintisində onlar fəal iştirak etmişlər. Onların yerləşdiyi yerə "kolonlar" adı verildi (85-ci kolon indiki Daşkəsən şəhəri ərazisində yerləşdiyinə görə əhali arasında "Daşkəsən şəhərinə gedirəm" əvəzinə, "85-ə gedirəm" ifadəsi yaranmışdı…).

**Şəkil 6. "Mədənçilər qəsəbəsi: Dünən və bu gün**





1939-cu ildə sınaq zavodu kimi inşa olunan Kobalt Saflaşdırma Fabrikində 1947-ci ildə yenidənqurma işləri davam etdirilmiş, yatağın kəşfiyyat işləri nəticəsində kobalt ehtiyatı dəqiqləşdirilmişdir.

1946-cı ildə Bayan, 1947-ci ildə artıq Quşçu Körpü dəmir yolu stansiyası hazır olur. Tikinti işləri isə davam etdirilir. İlkin layihəyə görə, filizin daşınması üçün, dəmir yolu indiki Saflaşdırma Fabrikinin baş korpusunun qarşısına kimi, Kəmərqaya yaxınlığından tunellə keçərək çəkilməliydi. Lakin sonradan layihə dəyişdirilərək, filizin Quşçu stansiyasına kimi Asma Hava Kanat Yolu ilə daşınması planlaşdırılır və tikintisinə (1947) başlanılır. Alabaşlı- Quşçu Körpü dəmir yolu 1950-ci ildən istifadəyə verilmişdir.

**Şəkil 7. "Quşçu Körpü" stansiyası. Dəmir filizi konsentratının yüklənməsi**





1948-ci ildən Saflaşdırma Fabrikinin və həmçinin, Qoşqar çayın sol sahilində, qayalı yamacın üst hissəsində (Saflaşdırma Fabrikə daha yaxın olduğu üçün) Daşkəsən şəhərinin tikintisinə başlanmışdır.

"Daşkəsən Mədən İdarəsi" dəmir filizi yataqlarını vaxtından əvvəl istismara vermək üçün 1946-cı ildən iki mədəndə -Şimal-Şərq və Şimal - Qərb mədənlərində hazırlıq işlərinə, hətta hər iki mədəndə, açıq üsulla, filizüstü açma işlərinə başlamışdı. Əvvəlcə Şimal-Şərq mədəninin istifadəyə verilməsi üçün üç növbədə işlər görülürdü. Həmin dövrdə "Bakinski raboçi" qəzeti Daşkəsəndə mədənlərin tikintisi haqda yazırdı ki, "dəmir filizin üstünü açmaq üçün qızğın işlər gedir, partlayış işləri aparılır, yollar salınır". SSRİ Ağır Sənaye Nazirliyi və Qara Metallurgiya Nazirliyi Daşkəsən dəmir filizi mədənlərinin istismara verilməsini sürətləndirmək haqqında 108 saylı Tikinti İdarəsinə və "Daşkəsən Mədən İdarəsi"nə lazımı göstərişlər verilmiş və əməli kömək də göstərmişdir. Bununla əlaqədar olaraq Şimal-Şərq mədəninin tikintisi üçün dizel stansiyası quraşdırılmağa başlanmışdı (1947). İnşaatçılar mədənə şose yolu çəkir, Qoşqarçayın üstündən dəmir körpü salır və fəhlələr üçün yeni mənzillər tikir, Daşkəsən şəhərinin tikintisini sürətləndirirdilər. Paralel olaraq Saflaşdırma Fabrikinin tikintisi də aparılmışdır.

1946 -1948-ci illərdə kompressor stansiyası, mədənlərarası avtomobil yolları, mexaniki sex, taxta-şalban və dülgərlik emalatxanası, mexaniki təmir sexi, kərpic, saxsı və əhəng zavodu, qum-çınqıl emalı və daş karxanası və sair obyektlər tikilib istifadəyə verildi.

1949-cu ilin avqustunda yüksək gərginlikli elektrik enerjisi verən qurğu tikilib başa çatdı. Bu isə, yüksək elektrik enerjisi tələb edən nəhəng ekskavatorlardan və digər dağ-mədən maşınlarından istifadə etməyə imkan verdi.

Dövlət Daşkəsəndə tikinti-quruculuq işlərinin inkişaf etdirilməsi üçün müvafiq vəsaiti durmadan çoxaldırdı. Belə ki, təkcə mədən tikintisinə sərf olunan əsaslı vəsait 1945-ci ildə 10 mln manat, 1948-ci ildə 26 mln manat, 1950-ci ildə 29 mln manat, 1953-cü ildə 70 mln manata çatmışdı.

1953-cü ilin sonuna kimi Şimal-Şərq mədəninin birinci növbəsinin istismara verilməsi üçün lazım olan mühüm işlər başa çatmışdı. Həmin ilin martında Şimal-Şərq mədəni istismara verildi. Geoloqlar illərdən bəri aparılan gərgin işə yekun vuraraq göstərdilər ki, filiz ehtiyatların 75%-i Şimal mədənlərinin payına düşür (həmin dövrün texnologiyası və təsdiqlənmiş ehtiyatlara görə). Buna görə də Filizsaflaşdırma Fabriki bu mədənlərin yaxınlığında tikildi. Həmin ildə də Quşçu Körpüsünə Asma Hava Kanat Yolun ikinci xətti də quraşdırıldı və Saflaşdırma Fabriki də tikilib istifadəyə verildi.

Dəmir filiz konsentratı Quşçu -Körpü stansiyasına (Yükləmə sexinin bunkerlərinə) 4 km uzunluğunda Asma Hava Kanat yolu (1 və 2 xətti) ilə daşınmışdır. 1960-cı illərdə Saflaşdırma Fabrikdə emaldan alınmış quru maqnit separasiya tullantısının (çınqılın) daşınması üçün əlavə 3-cü Asma Hava Kanat Yolu xətti də istismara verilmişdir.





**Şəkil 8. Saflaşdırma Fabriki (quru emal dövrü və nəm üsulla emal dövrü)**

1954-cü ildə, aprel ayının 30-da, Daşkəsən Mədən İdarəsi ilk məhsulunu- dəmir filizi konsentratını istehsal etdi. Bununla Azərbaycan dağ-mədən sənayesinin inkişafı tarixinə əlamətdar bir səhifə yazıldı.

1956-cı ildən Şimal-Qərb mədəni də istismara verildi.

1956-cı ilin birinci kvartalında inşaatçılar mexanikləşdirilmiş poliqon tipli dəmir -beton zavodunun tikintisini başa çatdırdı və yüksək keyfiyyətli dəmir -beton məmulatı buraxmağa başladı.



**Şəkil 9. Şimal-Qərb mədəni**



**Şəkil 10. Saflaşdırma Fabriki və Baş ofis**

Daşkəsən şəhərinin tikintisi sürətləndirildi və 1956-cı ildə, bəzi idarələr Yuxarı Daşkəsən qəsəbəsində saxlanılaraq, inzibati mərkəz Daşkəsənə köçürüldü, şəhərə şəhər tipli qəsəbə statusu verildi. Həmçinin, rayonun adı dəyişdirilərək, "Daşkəsən rayonu" adlandırıldı. Eləcə də, Daşkəsən Mədən İdarəsi, Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının 14 oktyabr 1957-ci il tarixli 35 saylı qərarı ilə "Azərbaycan dağ-mədən kombinatı", 29 aprel 1959-cu il tarixli 57 saylı qərarı ilə "Azərbaycan dağ-mədən filizsaflaşdırma kombinatı" adlandırılmışdır (2001-ci ildən "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti). 10 iyun 1961-ci il tarixli 522 saylı sərəncamla, 110 ha Daşkəsən şəhərinə, 35 ha Mədənçilər qəsəbəsinə, 24,3 ha Kobalt qəsəbəsinə, 20 ha Quşçu qəsəbəsinə verildiyi üçün cəmi 233,3 ha torpaq sahəsi "Daşkəsən Mədən İdarəsi"nin balansından çıxarılmışdır.

1954-cü ildən 1958-ci ilədək davam edən bu mərhələdə, Daşkəsəndə, bir çox mühüm sənaye əhəmiyyətli obyektlər tikilib istismara verildi.

**Şəkil 11. Ön planda: Yuxarı Daşkəsən qəsəbəsi, orta planda –"Mədənçilər" qəsəbəsi, arxa planda – Daşkəsən şəhəri (1967-ci il)**



Həmin dövrlərdə Daşkəsən şəhərində radio, telefon, elektrik xətləri çəkilmiş, şəhər sakinləri üçün rabitə, səhiyyə məntəqələri, xəstəxana, yataqxana, mağaza və müxtəlif ictimai-iaşə müəssisələri tikilmişdir.

Azərbaycanın qərb bölgəsində yerləşən Daşkəsən rayonu təkcə zəngin təbii sərvətləri ilə deyil, həm də öz mədəni irsi ilə seçilən bir diyardır. Bu irsin əsas simvollarından biri isə Daşkəsən şəhərində yerləşən və 1950-ci illərdə təməli qoyulan "Mədənçilər klubu" adlandırılan -Mədəniyyət Evidir.

1950-ci illərin sonlarında, dağ-mədən sənayesinin inkişaf etdiyi dövrdə, Daşkəsəndə mədəniyyətin inkişa-

fı üçün ciddi addımlar atıldı. 1956–1958-ci illərdə inşa edilən möhtəşəm "Mədənçilər Klubu" mədən işçilərinin mədəni ehtiyaclarını qarşılamaq, onların asudə vaxtını səmərəli keçirmək və maarifləndirmək məqsədi daşıyırdı.

Mədəniyyət – insanın təbiətə və cəmiyyətə münasibətini ifadə edən, tarixi inkişaf yolu keçmiş və hər bir xalqın kimliyini əks etdirən dəyərlər toplusudur. O, həm fərdi, həm də ictimai səviyyədə insan fəaliyyətinin və düşüncə tərzinin məhsuludur.

Aşağıdakı şəkildə - Daşkəsən şəhərində ilk tikililərdən olan - "Mədənçilər klubu" nun, o zamankı və hazırkı vəziyyəti göstərilib.

**Şəkil 12.Daşkəsən: İlk mədəniyyət evi –"Mədənçilər klubu" (1956-1958 -ci illər)**



**Şəkil 13. Daşkəsən "Mədəniyyət Evi"**



Müasir şəkil Mədəniyyət Evinin tam bərpa olunmuş və abadlaşdırılmış vəziyyətini əks etdirir.

Müharibə dövründə (1941-1945-ci illər) Sovet Müdafiə Sənayesinin kobaltla təminatının 60%-ni ödəyən Daşkəsəndə kobalt istehsalı 1961-ci ildə dayandırılmışdır. Səbəb ehtiyatın tamamilə tükəndiyi göstərilmişdir. 23 il ərzində (1938-196-ci illər) itki nəzərə almaqla 800 tondan çox kobalt (metal), itki nəzərə almadan -696 ton kobalt (metal) istehsal olunmuşdur.

Daşkəsəndə, kobalt istehsalı ilə yanaşı, daha bir faydalı qazıntı - alunit yataqlarının istismarı da nəzərdə tutulmuşdu.

Zəylik Alunit yatağı, Daşkəsən filiz rayonunda, Daşkəsən rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşir.

Zəylik alunit yatağı dünyada ən böyük alunit yataqlarından biri olaraq, filizləşmənin miqyasına, yaranma şəraitinə və layşəkilli yatımına görə çox nadirdir və Azərbaycan Respublikasının və dünyanın başqa yataqlarından kəskin surətdə fərqlənir. Yataq Daşkəsən sinklinalının orta və üst Yura vulkanogen və vulkanogen-çökmə süxurlarından təşkil olunmuş şimali-şərq qanadında yerləşir və sənaye ehtiyatları 182,6 mln. ton (01.01.2016-cı ilə qalıq -161,8 mln ton) təşkil etmişdir.

Həmin dövrdə Gəncədə tikilməkdə olan alüminium zavodu Zəylik Alunit Mədən İdarəsinin istehsal etdiyi alunit əsasında işləməli idi.

1958-ci ildə, mədəndə işləyən işçilər üçün, mədənin yaxınlığında "Alunitdağ" adlı qəsəbəsi salınmışdır.

**Şəkil 14.Zəylik Alunit Mədən İdarəsi**



**Şəkil 15. "Alunitdağ" qəsəbəsi**



1963-cü ilin may ayında Daşkəsənin Zəylik Alunit Mədən İdarəsi Gəncə alüminium zavodunu (sonralar"

Gəncə Giltorpaq Kombinatı") keyfiyyətli xammalla təchiz etməyə başladı.

*Daşkəsən rayonu, 1963-cü ildə inzibati ərazi kimi ləğv olunaraq Xanlar rayonu (indiki Göygöl) ərazisinə qatılmış, 1965-ci ildə yenidən inzibati ərazi kimi bərpa olunmuşdur. Həmin ildə də Daşkəsən "şəhər" statusunu almışdır.*

1966-cı ilin may ayında Daşkəsəndə daha bir sənaye müəssisəsi -mərmər mədəni işə salınmışdır. Müəssisənin məhsulu əsasən Qaradağ və Bakı mərmər zavodlarına göndərilirdi.

Zəylik alunit yatağı Gəncə gil-torpaq kombinatının mineral-xammal bazası kimi, hər il alunitdən 200 min ton gil-torpaq, 385 min ton sulfat turşusu, 78 min ton kalium gübrəsi alınırdı və o illərdə əsasən Krasnoyarsk və Irkutsk alüminium zavodlarına göndərilirdi. Bu yatağın ən cəlbedici amillərindən biri də odur ki, alunit filizlərinin tərkibində nüvə reaktorlarında, təyyarə və raket texnikasında, ərinti birləşmələrində istifadə edilən vanadium və qallium metalları vardır.

90-cı illərin ortalarından Zəylik Aeiunit yatağından mineral-xammal çıxarılması dayandırılmışdır.

"Azərbaycan Dağ-Mədən Filizsaflaşdırma Kombinatı"nın genişləndirilməsi və yenidən qurulması, Saflaşdırıcı Fabrikdə nəm üsulla konsentrat istehsalı məqsədi ilə 1957-ci ildə əlavə olaraq Güney Zağalı su anbarının tikintisi üçün 75 ha torpaq sahəsi müəssisəyə verilmişdir.

SSRİ Nazirlər Sovetinin 19 avqust 1958-ci il tarixli 943 saylı qərarına əsasən Güney Zağalı su anbarının tikilməsi üçün layihə təsdiq olunmuşdur. Layihənin tikintisi "UKRVODOKANALPROEKT" institutu tərəfindən 1959-cu ildən başlanmışdır. Həmin layihədə Kombinatın Saflaşdırıcı Fabrikin su təchizatını təmin etmək üçün Güney Zağalı su anbarından Saflaşdırıcı Fabrikə qədər su kəməri çəkilməsi də nəzərdə tutulmuşdur. Su kəmərinin tikintisi 1962-ci ildə başa çatmışdır.

1970-ci ildə Qoşqar çayının üzərində qurulmuş, su tutumu 4.0 mln $m^3$ olan Güney Zağalı su anbarı tam şəkildə istismarı üçün təhvil verildi. Yenidənqurma işləri 1973-cü ildə tamamlanmış, Saflaşdırma Fabrik tamamilə nəm üsulla saflaşdırma prosesinə keçmişdir.

1970-ci illərdə, Gəncə -Daşkəsən şose yolu təmir edilərək daş örtük, asfalt örtüyü ilə əvəzlənmişdir.

Ümumiyyətlə, dağ-mədən sənayesi ilə yanaşı, Daşkəsəndə sənaye, tikinti və nəqliyyat müəssisələri, həmçinin, kənd təsərrüfatı sahələri də 1971-1975-ci illərdə böyük nailiyyətlər qazanmışdır.

1954 – 1968-ci illərdə saflaşdırma fabriki quru üsulla saflaşdırma sxemi üzrə işləmiş, iki çeşiddə məhsul istehsal etmişdir : 10-40 mm ölçüdə domna konsentratı və quru üsulla cubuqlu üyüdücü sexdə üyüdülmüş, ölçüləri 0 – 8 mm olan aqlomerasiya konsentratında dəmirin kütlə payı 53-54% olmuşdur.

Saflaşdırıcı Fabrikdə 1966-cı ildən nəm üsulla saflaşdırmaya keçməklə əlaqədar yenidənqurma işlərinə başlanmış və 1968 -ci ildən 1972-ci ilə qədər həm nəm, həm də quru üsulla konsentrat istehsalı həyata keçirilmişdir.

Yenidənqurma işləri 1973-cü ildə tamamlanmış, fabrik tamamilə nəm üsulla saflaşdırma prosesinə keçmişdir. Yenidənqurma işlərindən sonra konsentratda dəmirin miqdarı 54%-dən 61,8%-ə qədər yüksəlmiş, üyünmənin dərinliyi isə (-0,074 mm fraksiyanın miqdarı) 45-52% olmuşdur. 1980-ci ildə saflaşdırıcı fabrikin 1,2 və 7-ci seksiyalarında ikipilləli üyütmə və saflaşdırma prosesi mənimsənilmiş, tərkibində 65% dəmir olan konsentrat istehsalının mümkünlüyü istehsalat şəraitində təsdiq olunmuşdur. Bu zaman üyünmənin dərinliyi ( konsentratda – 0,074 mm fraksiyanın miqdarı ) 70% olmuşdur.

Saflaşdırıcı fabrik 1974-cü ildən 2016-cı ilə qədər birpilləli üyütmə və saflaşdırma sxemi üzrə işləmişdir. Konsentratda dəmirin miqdarı orta hesabla 60-61% olmuşdur.

Azərbaycan SSR Nazirlər Sovetinin 24 may 1984-cü il tarixli 175 saylı qərarı ilə Cənubi - Daşkəsən yatağında dağ-mədən işlərinin aparılması üçün 266,3 ha torpaq sahəsi müəssisənin balansına daxil edilmiş və yataqda 1990-cı ildən işlərə başlanılmışdır.

"Azərbaycan Dağ-Mədən Filizsaflaşdırma Kombinatı" 1991-ci ilin dekabr ayına qədər keçmiş SSRİ Metallurgiya Nazirliyinin tərkibində fəaliyyət göstərmişdir.

## MÜSTƏQİLLİK DÖVRÜ

Müstəqillik dövrü ölkəmizin hər yerində olduğu kimi, Daşkəsənin də mənzərəsini dəyişmişdir. Sovet dövrünün süqutundan sönra ilk illər çətinliklə qarşılansa da, tədricən həyat öz axarına düşməyə başladı.

Müstəqilliyin ilk dövründə, " Azərbaycan Dağ-Mədən Filizsaflaşdırma Kombinatı" Azərbaycan Respublikası Əlvan metallurgiya istehsalı və emalı üzrə Dövlət Konserninin tərkibinə daxil olmuşdu. Sonra respublika Prezidentinin 4 may 1993-cü il tarixli 552 saylı fər-

manına əsasən Azərbaycan Respublikası Metallurgiya Dövlət Şirkətinin tərkibinə qatılmış, Ədliyyə Nazirliyinin 09 noyabr 1994-cü il tarixli qərarı ilə hüquqi şəxs kimi qeydə alınmışdır. Müəssisə, "Metallurgiya" Dövlət Şirkətinin ləğv olunduqdan sonra respublika Əmlak Nazirliyinin 30 aprel 2001-ci il tarixli, 214 saylı sərəncamı ilə Azərbaycan Dağ- Mədən Filizsaflaşdırma kombinatının bazasında "Daşkəsən Filizsaflaşdırma" Açıq tipli Səhmdar Cəmiyyəti yaradılmışdır.

2006-cı ildən aparılan tədbirlər nəticəsində Daşkəsən rayonunda elektrik şəbəkələrinin yenidən qurulması, şəhərdəki qazanxanaların modernləşdirilməsi və yenilərinin tikintisi, istilik sistemlərinin bərpası, su təchizatının yaxşılaşdırılması və digər işlərin görülməsi Daşkəsənin simasını tamamilə dəyişdirmişdir.

Daşkəsənlilər son illərdə sübut etdilər ki, doğma rayonlarını daha abad etmək naminə əllərindən gələn hər cür fədakarlığı etməyə hazırdırlar. Rayon üzrə artıq investisiya xəritəsi hazırlanması və elmi-işçi qrupu ilə birgə işlər aparılması üçün tədbirlər görülməkdə davam etdirilir.

1993-cü ilin dekabr ayından dəmir filizi konsentratı alıcısı olmadığına görə öz profili üzrə işləyə bilməyən müəssisə Dövlət Proqramına uyğun olaraq 2006-cı ilin avqust ayında Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsində tender keçirilmiş və həmin tenderdə "DET.AL Limited" şirkəti qalib gəlmişdir. Polad Əritmə Zavodunun tikilməsi ilə əlaqədar 26.10.2006-ci il tarixli 281 saylı sərəncama əsasən Gəncə şəhəri Kəpəz rayonu Gil –Torpaq İstehsalat sahəsi ərazisindən 93 ha müəssisənin ərazi balansına daxil edilmişdir.

2013-cü ilin aprel ayının 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdar Cəmiyyəti yaradılması haqda sərəncam imzaladı və həmin sərəncamla "Daşkəsən Filizsaflaşdırma" ASC də bu Kompleksin tərkibinə daxil edildi. Lakin bu qurum da nəzərdə tutulan proqramı həyata keçirə bilmədi.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli "Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında Sərəncamı" respublikada qara metallurgiyanın inkişafında yeni mərhələnin başlanmasına yol açmışdır. Sərəncamda "Azərbaycan Polad İstehsalı Kompleksi"nə daxil edilmiş, "Daşkəsən Filizsaflaşdırma" ASC özəlləşdirməyə açıq elan edilməsi və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilməsi göstərilmişdir.

Müəssisədə 1954-cü ildən 2017-ci ilədək mədənlərdən 92,3 milyon ton dəmir filizi çıxarılmış, 43,6 milyon ton dəmir filizi konsentratı, 205 min ton xırdalanmış dəmir filizi istehsal olunmuşdur. 1994-cü ildən 2017-ci ilədək yataqda istismar işləri müəyyən fasilələrlə qismən aparılmışdır.

Daşkəsəndə dağ-mədən sənayesinin inkişafına təkan verən yeni bir sahə - Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən "AzərGold" QSC təsis edildi. Hazırda Səhmdar Cəmiyyətin iki törəmə şirkəti mövcuddur: "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC.

"Daşkəsən Dəmir Filiz" MMC tərəfindən yatağın səmərəli və davamlı istismarının təmin edilməsi məqsədilə 2020-ci ildən etibarən burada geniş kəşfiyyat işləri aparılıb, mineral ehtiyatların beynəlxalq standartlara uyğun olaraq yenidən qiymətləndirilməsi nəticəsində yerin təkində olan ümumi ehtiyatlarda, iki yataq üzrə 70 milyon ton filiz kütləsinin artımı təsdiqlənərək 187.3 milyon ton təşkil edib.

Sahədə ən qısa müddətdə istismar işlərinə başlamaq üçün aparılmış təhlillər 2022-ci ildə yekunlaşdırılıb. 2022 -2023-cü illərdə Cənub-Şərq mədənindən 1,8 mln ton dəmir filizi hasil etmişlər.

Hazırda müəssisədə Sərəncamda göstərilən "xammaldan- son məhsula kimi" Daşkəsən filiz rayonu ərazisində olan dəmir filizi ehtiyatı uzunmüddətli dəmir filizi konsentratı istehsal olunmasına şərait yaradır.

2020-ci il Sərəncamına əsasən, aparılan bu nəhəng tikintinin nəticəsində - Daşkəsən dəmir filizi layihəsi çərçivəsində - yataqlarda hasil edilməsi planlaşdırılan qara metal filizi -dəmir filizi yaxın illərdə yaradılacaq üç mərhələli istehsal zəncirinin xammalı kimi istifadə olunacaq. Belə ki, Daşkəsən rayonunda dəmir konsentratının istehsalı üzrə Zənginləşdirmə Fabrikinin, Gəncə ətrafı zonada isə aralıq məhsullar olan qranul istehsalı sexinin və son məhsul - HBI (isti briketlənmiş dəmir) istehsalı.

Bu məqsədlə, son zamanlarda Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində "AzerGold" QSC-nin törəmə cəmiyyəti – "Daşkəsən Dəmir Filiz" MMC və Çinin "Sinosteel Equipment & Engineering Co., Ltd" şirkəti arasında "Daşkəsən" dəmir filizi sahəsində istehsal zəncirinin qurulması üzrə əsas mərhələlərdən birinin icrasına dair müqavilə imzalanması, iqtisadi səmərəli filizlərin həcmi və uyğun texnoloji həlləri, tikinti və mühəndislik işlərini əhatə etməklə yatağın tammiqyaslı işlənməsi üçün növbəti mərhələlərə keçid etməyə imkan yaradacaqdır.

Beləliklə, ölkədə emal olunan metal qırıntıları yüksək keyfiyyətli xammalla əvəzlənəcək, metallurgiya sənayesinin idxaldan asılılığı azalacaq, ixrac məqsədilə polad məmulatlarının istehsalına artan tələbat ödəniləcəkdir.

Daşkəsən dəmir filizi yataqlarının istismarının, həm ölkə üçün, həm də daşkəsənlilər üçün faydalı olacağına şübhə yoxdur.

## SON SÖZ ƏVƏZİ

Azərbaycanın ən iri sənaye rayonu olan Daşkəsən rayonunda, dağ-mədən müəssisəsi- "Daşkəsən Filiz İdarəsi" -1954-cü ilin 30 aprelində ilk məhsulu –dəmir filizi konsentratı istehsal etməklə nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda DAĞ –MƏDƏN SƏNAYESİNİN əsasını qoymuş oldu.

Bu öz qiymətini tapmalı, həmin tarix Azərbaycanın DAĞ –MƏDƏN SƏNAYESİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMına çevrilməlidir.

Ümidvarıq ki, aparılan tədbirlər sayəsində tezliklə müəssisə normal həyatına qayıdacaq və öz keçmiş şöhrətini bərpa edəcəkdir.

## ƏDƏBİYYAT:

1. Həmdullah Mustəvfi Qəzvini, "Nuzhat-al-Qulub". Qəzvin, 740-cı hicri il-1340-cı miladi il. (Tərcümə edən: G. le Strange. "E. J. W. Gibb Memorial" Fondunun sifarişi ilə nəşr olunmuşdur. Şərq Mətbəəsi,- London ,1919-cu il)

2. Г.Розе. «Новое месторождение кобальтого блеска», Горный журнал,ч.IV. 1868г.

3. К. Н. Пафенгольц «Дашкесан и Заглик» Труды ГеолКом, выпуск 17, 1928 г.

4. Кашкай М.А.–«Петрология и металлогения Дашкесана и других железорудных месторождений Азербайджана», Изд. «Недра», Москва, 1965г.

5. M.Ə. Qaşqay, İ.Ə.Babayev, "Azərbaycanın alunit yataqları" Elm nəşriyyatı, Bakı, 1976-cı il.

6. R. İmanov, "Daşkəsən", Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1979-cu il.

7. Azərbaycan Sovet Ensiklopediyası. III cild, ASE Baş Redaksiyasının Nəşriyyatı. Bakı, 1979-cu il.

8. A.Məmmədov,"Dəstəfur-Daşkəsən". (Tarixi-arxeoloji -etnoqrafik tədqiqat) Bakı,2002 ci il.

**Şəkil 16. Daşkəsən şəhəri -bu gün**

